# Dağ yəhudilərinin Bakı sinaqoqunda Holokost qurbanlarının xatirəsi anılıb

Dağ yəhudilərinin Bakı sinaqoqunda Fəlakət və Qəhrəmanlıq Günü (Yom a-Şoa) qeyd olunub.

Altı milyon Holokost qurbanının xatirəsinə şamların yandırılması mərasiminə İsrailin Azərbaycandakı səfiri Corc Dik, Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, Milli Məclisin deputatı Anatoli Rəfailov, Avropa Yəhudiləri İcmasının sədri Aleksandr Şarovski, Gürcü Yəhudiləri İcmasının sədri Zamir İsayev və "Nativ"in Mərkəzi Asiya və Qafqaz üzrə rəhbəri Mark İfraimov dəvət olunublar.

AZƏRTAC STMEGI saytına istinadla xəbər verir ki, İsrailin Azərbaycanda müvəqqəti işlər vəkili Doron Peyer öz çıxışında deyib: "Bu gün biz burada faşistlər tərəfindən qətlə yetirilmiş altı milyon yəhudinin, o cümlədən uşaqların xatirəsini anmaq məqsədilə yığışmışıq. Biz qorxu bilməyən, getto və konsentrasiya düşərgələrində baş qaldıran yəhudiləri də yad edirik. Bizim borcumuz bütün bunları unutmamaq və mübarizəni davam etdirməkdir. Yəhudilərin həyatı və ölümü, rəşadəti haqqında danışmağa davam etməliyik. Lakin İsrailin borcu təkcə bu hadisələri xatırlamaq deyil, həm də bütün dünyaya danışmaqdır. Nasist konsentrasiya düşərgəsində sağ qalmış yeganə azərbaycanlı sakin Lev Zaxaroviç Şvarts bir neçə ay əvvəl vəfat edib. Çox təəssüf ki, biz onun sağ qalması və tolerant Azərbaycanda yeni həyatından özünün iştirakı olmadan danışacağıq".



Həlak olanların xatirəsinə "Kadiş" duasının oxunması üçün dağ yəhudiləri sinaqoqunun ravvini Avraam Yakubov dəvət olunmuşdu.

Tədbir İsrailin Azərbaycandakı səfiri Corc Dikin çıxışı ilə davam edib. O deyib: "Biz Holokost zamanı qətlə yetirilmiş altı milyon insanın xatirəsini anmaq üçün buradayıq. Düz 80 il əvvəl, 1943-cü ildə Pesax bayramı vaxtı nasistlər Varşava gettosunda yəhudiləri qətlə yetirmək qərarına gəliblər. Onlar bu qırğınla bütün dünyaya sübut etmək istəyirdi ki, heç bir Tanrı yəhudilərin azadlıq bayramı zamanı onlara azadlıq bəxş etməyəcək. Bu dəfə nasistlərin planlarından əvvəlcədən xəbər tutan yəhudilər onlara müqavimət göstərmək qərarına gəldilər. Tarixdə ən cəsarətli addımlardan birini atan getto sakinləri dörd həftə ərzində vermaxta qarşı müqavimət göstəriblər. Qadın və uşaqların qəhrəmanlığı təsəvvür edilə bilməz. Onların silahı az idi və heç də hamısı hərbi hazırlıq keçməmişdi. Bununla belə, bu insanlar həyatlarını fəda edərək döyüşürdülər. Bu gün bizim öz suverenliyimiz, dövlətimizi qorumaq üçün gücümüz var. Varşava gettosu, Osvensim bir daha təkrarlanmayacaq, çünki İsrail dövləti mövcuddur. Bizim burada olmağımız həyatın ölüm və ümid üzərində qələbəsinin rəmzidir. Bütün həlak olanların ruhları şad olsun!"

"İzkor" matəm duasının oxunması üçün ravvinlər Şolom Kubiçek və Zamir İsayev dəvət olunublar. Tədbir "Atikva" himninin ifa edilməsi ilə başa çatıb.

Azərbaycan.- 2023.- 19 aprel.- S.12.